Türküstan №2 13 - 19 yanvar 2026-cı il



Ağacamal Kamiloğlu

# "Xaltanlı Tağı" haqqında yeni söz

***Xalqımız çoxsahəli qədim və zəngin mədəniyyətə malikdir. Bu mədəniyyət sahələrindən biri də müxtəlif qollara malik aşıq sənətidir. Xalq arasında xüsusilə dərin köklərə malik olan bu sənət həm şair, həm müşayətçi, həm ifaçı, həm rəqqas olan el arasından çıxmış sənətkarların sayəsində uzun yol keçərək bugünümüzə qədər gəlib çatmış və indi də toy məclislərimizə digər musiqiçilərlə yanaşı onlar da öz ifaları ilə rövnəq verirlər.***

Aşıq sənəti bölgələrimiz arasında heç də bərabər yayılmamışdır. Bu sənəti ən çox qoruyub inkişaf etdirən bölgələrimizdən biri də Şirvandır bölgəsidir. XIX əsr klassik Şirvan aşıq məktəbinin yaradıcılarından biri də Aşıq Tağıdır. O, xalq arasında daha çox yaşamış olduğu mahalın adı ilə - Xaltanlı Tağı kimi tanınmışdır. Xaltanlı Tağı yaradıcılığı az tədqiq olunmuş aşıqlarımizdandır. Aşığın "Molla Nur" və "Tağı və Güllü" adlı iki dastanı və bəzi kitablarda şeirlərindən nümunələr çap olunmuşdur. Bununla belə Tağının şeirləri bu gün də müasir aşıqlarımızın rapertuarında yaşayır, Aşıq Haşım, Aşıq Ağamurad, Aşıq Əli və digərlərinin ifasını bəzəyir.

Qubalı müəllim Tahir Həsənlinin "Xaltanlı Tağı" monoqrafiyası bu boşluğu doldurmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Müəllif əsəri ərsəyə gətirmək üçün müxtəlif mənbələri araşdırmış, aşığın nəslinin nümayəndələri ilə, yaşadığı mahalın insanları ilə görüşərək onun haqqında qiymətli materiallar toplaya bilmişdir. O, topladığı materiallar əsasında aşığın həyat və yaradıcılığı haqqında kitabda geniş məlumat verir. T.Həsənli aşığın şeirlərini məzmununa uyğun olaraq qruplaşdıraraq onlar haqqında söz açır və onun yaradıcılığının bədii xüsusiyyətlərini təhlil edir, bədii təsvir vasitələrindən, ədəbi priyomlardan necə məharətlə istifadə etdiyini göstərir. Müəllif yazır: ... Şirvan aşıq şeirinin qüdrətli sənətkarı Xaltanlı Tağı bədii təsvir vasitələrindən yaradıcı şəkildə, ustalıqla istifadə etmişdir. Aşığın istər




təbiət, istər məhəbbət, eləcə də didaktik-fəlsəfi şeirlərində özünəməxsus ifadə tərzi və məcazın növləri ilə qarşılaşırsan.

Dediyimiz kimi Xaltanlı Tağının yaradıcılığı az tədqiq olunub. Onun dastan və şeirləri vaxtında tam toplanmadığından xeyli hissəsi itib-batmış, bir hissəsi isə xalqın yaddaşında qalaraq tədricən müəyyən təhriflərə məruz qalmışdır. T.Həsənlinin bu kitabının qiymətli cəhətlərindən biri də odur ki, o, Xaltanlı Tağının müxtəlif mənbələrdən topladığı, bəziləri ilk dəfə çap olunan 40 şeirini də oxuculara təqdim etmişdir. Bu şeirlərdən təkcə aşıqlar, ədəbiyyatçılar, sıravi oxucular deyil, əminəm ki,




bəstəkarlar da bəhrələnə, onları gözəl mahıların bədii mətninə çevirə bilərlər.

Aşıq Tağının yaradıcılığından bir nümunəni oxucuların diqqətinə çatdırmağı özümüzə borc bilirik.

### Bulaq

**Gəlib həsrət ilə aradım səni,**
**Yurdumu gətirdin xəyala, bulaq,**
**Nə kuzəsi vardı, nə yarın özü,**
**Qopardın sinəmdən min nalə, bulaq!**
**Obası köçmüşdü, eli köçmüşdü,**
**Yarpızı saralıb, gülü köçmüşdü.**
**Ot basıb bağlanıb yolu, köçmüşdü**
**Bəlkə də gəlmişdi zavala bulaq.**
**Xətmilə şairlər dastan eyləyər,**
**Küləklər üstündə cövlan eyləyər,**
**Qar örtər, sovrular, duman eyləyər,**
**Yumar gözün, baxmaz bu yana bulaq.**
**Xaltanlı Tağı da axtarar, gəzər,**
**Tapmasa yurduna eyləyər həzər.**
**Yarımın əlindən düşənə bənzər,**
**Qalıb Xaladarda piyala, bulaq.**

Sonda onu da qeyd edək ki, T.Nəsənli açılmamış arxivlərə, sinədəftər ağsaqqalların, ağbirçəklərin yaddaşına bir daha müraciət edərək yola saldığımız ilin sonlarında Aşıq Tağı haqqında daha bir kitabını - "Haqdan yanan çıraq" monoqrafiyasını da oxuculara təqdim etmişdir.